# YAP-ın 31 illiyi Göygöldə qeyd olunmuşdur

Göygöl Rayon İcra Hakimiyyəti və Yeni Azərbaycan Partiyası rayon təşkilatının birgə təşkilatçılığı ilə YAP-ın yaranmasının 31 illiyinə həsr olunmuş "Tarix yazan əbədiyaşar lider" mövzusunda konfrans keçirilmişdir.




Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Elvin Paşayevin, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Pərvin Kərimzadənin, Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru Zəfər Qurbanovun, Gəncə Dövlət Universitetinin və Azərbaycan Dövlət Aqrar Universitetinin ictimai fənn kafedraları alimlərinin iştirakı ilə keçirilən konfransı giriş sözü ilə E.Paşayev açaraq Yeni Azərbaycan Partiyasının 31 illiyi münasibətilə rayon ictimaiyyətini təbrik etmişdir. Azərbaycan dövlətinin inkişafı və tərəqqisi yolunda YAP-ın və Heydər Əliyevin xidmətlərindən danışan natiq qeyd etmişdir ki, davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycanın bugünkü nailiyyətləri Ulu Öndərin adı ilə bağlıdır. Vətəninə sonsuz sevgi ilə bağlı olan Ulu Öndərin amalları bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Sonra YAP rayon təşkilatının sədri V.İsayev çıxış edərək Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı tarixi xidmətlərindən danışmışdır. Bildirmişdir ki, Heydər Əliyevin təşəbbüsü ilə yaradılan Yeni Azərbaycan Partiyası dövlətçiliyimizin, müstəqilliyimizin daha da möhkəmlənməsi istiqamətində addımlar ataraq milyonların partiyasına çevrilmişdir.

P.Kərimzadə isə çıxışında Heydər Əliyevin bütün ömrünü müstəqil Azərbaycanın inkişafına həsr etdiyini diqqətə çatdırmışdır. "Ulu Öndərin sarsılmaz siyasətinin möhkəmliyi özünü Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə mənfur düşmən üzərində Qələbədə də bir daha göstərdi".

Çıxışlardan sonra rayonun ictimai-siyasi həyatında fərqlənən bir qrup partiya fəalına fəxri fərmanlar təqdim olunmuşdur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.-22 noyabr, № 254.- S.12.